# “POS-terminalın onlayn qeydiyyatı” elektron xidmətinin

# İstifadəçi təlimatı

**“POS-terminalın onlayn qeydiyyatı”** ərizəsinin təqdim olunması məqsədilə https://new.e-taxes.gov.az Portalına daxil olub “Giriş” bölməsi seçilir.




Giriş bölməsinə daxil olduqdan sonra açılan pəncərədə “Asan İmza” və yaxud “SİMA Token” bölmələrindən biri seçilir.



İstifadəçi tərəfindən elektron kabinetə daxil olmaq üçün “Asan İmza” bölməsi seçildikdə “Mobil nömrə” və “İstifadəçi ID”  daxil edilir  və “Daxil ol” düyməsi sıxılır.




İstifadəçi tərəfindən elektron kabinetə daxil olmaq üçün “SİMA Token” bölməsi seçildikdə ilk öncə SİMA Token kompüterə qoşulur, sonra “Daxil ol” düyməsi sıxılır.




Növbəti mərhələdə açılan yeni pəncərədə **“Ərizələr”** modulu seçilir.




Daha sonra “POS-terminalın onlayn qeydiyyatı” ərizəsinin təqdim olunması ilə bağlı “Yeni ərizə” xanasına müraciətə uyğun ərizənin adı yazılaraq axtarış nəticəsində ekranda adı əks olunan ərizə forması seçilir və yaxud **“Hamısına bax”** düyməsi vasitəsilə yeni açılan pəncərədən müvafiq ərizə forması seçilir.




Əgər istifadəçi tərəfindən daha əvvəl bu ərizə forması doldurularaq qaralamada saxlanılmışdırsa, o zaman ekranda açılan pəncərədə əvvəl qaralaması yaradılmış ərizə formaları əks olunur və seçim imkanı verilir. İstifadəçi tərəfindən əvvəllər qaralaması yaradılmış ərizə forması üzrə davam etmək istənildikdə ekrandakı qaralaması olan ərizə forması seçilir və bu zaman aktivləşən “**Davam et**” düyməsi sıxılır və yeni pəncərədə əvvəl doldurulmuş ərizə forması açılır və düzəliş imkanı mümkün olur.




Müvafiq ərizə forması üzrə yeni ərizə formasını yaratmaq istədikdə isə “Yenisini yarat” düyməsi sıxılır.




Açılmış ərizə formasında əks olunan “Siyahıya qayıt” düyməsi sıxıldıqda ekranda əks olunan pəncərədəki “İmtina” düyməsi sıxılmaqla ərizə formasının doldurulmasına qaldığı yerdən davam etmək, “Xeyr, silinsin” düyməsi sıxılmaqla yaradılmış ərizə formasını silmək, “Bəli, yadda saxlanılsın” düyməsi sıxılmaqla yaradılmış ərizə formasının yadda saxlanılması mümkün olur.




“Xeyr, silinsin” düyməsi sıxıldıqda açılan “Xidmətin yekunlaşdırılması” pəncərəsindəki müvafiq məlumatlar doldurulduqdan sonra aktivləşən **“Göndər”** düyməsi sıxılır.




Açılmış ərizə formasında “Bank ekvayer” , “Rəhbər” və “Vergi orqanı” hissələri avtomatik olaraq əks etdirilir.




“Qeydiyyat məlumatları ” bölməsində vergi ödəyicisinin VÖEN-i qeyd olunur. “Əsas obyekti seçin” bölməsində POS-terminalın quraşdırılacağı obyekt seçilir.




Vergi ödəyicisinin əlavə obyekti olarsa, “Əlavə obyekti seçin” bölməsi aktivləşir.
“Bank” bölməsində sistem tərəfindən POS-terminalı qeydiyyata alan bank seçilir. Daha sonra “Filial” bölməsindən POS-terminalın qeydiyyata alınacağı filial qeyd edilir.




“Prosessinq mərkəzi” xanası üzrə müvafiq seçim edilir.




"POS-terminalın tipi" bölməsindən "Stasionar" yaxud "Mobil-POS cihaz" olması barədə seçim edilir və sonra POS-terminalın seriyası və nömrəsi qeyd olunur.






Daha sonra ərizənin göndərilməsi üçün aktivləşən **“İmzala və göndər”** düyməsi, qaralamada saxlanılması və daha sonra göndərilməsi üçün **“Qaralamada saxla və çıx”** düyməsi sıxılır.




**“İmzala və göndər”** düyməsi sıxıldıqdan sonra müvafiq ərizə forması imzalanaraq göndərilə və ya bu əməliyyatdan imtina edilə bilər.




“Təsdiqlə və göndər” düyməsi sıxıldıqda açılan pəncərədə “İmtina” düyməsi sıxıldıqda yenidən əvvəlki pəncərəyə (ərizə formasının doldurulması pəncərəsinə) geri qayıdılır.




Ərizə imzalanaraq göndərildikdən sonra yeni pəncərədə istifadəçi tərəfindən doldurulmuş məlumatlara uyğun ərizə forması və müvafiq ərizənin göndərilməsi barədə “Bildiriş” ekranda əks olunur. Həmin pəncərədə “**Çap**” düyməsi vasitəsi ilə ərizə çap edilə, “**Endir**” düyməsi vasitəsi ilə ərizə endirilə (yüklənilə) bilər. “Bağla” düyməsi isə pəncərəni bağlamaq üçün nəzərdə tutulur.




İstifadəçi tərəfindən göndərilən “POS-terminalın qeydiyyat” ərizəsi onun “Ərizələr” modulundakı “Göndərilənlər” qovluğunda əks olunur və bu hissədə ərizənin statusu barədə məlumat qeyd olunur.




Eyni zamanda bu hissədən də istifadəçi tərəfindən **“Çap”** düyməsi vasitəsi ilə ərizə çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər.


Əsas səhifə
Məktublar
21
Ödəniş
Ərizələr
Bəyannamələr
Büdcə ilə hesablaşmalar
ƏDV Depozit Hesabı
E-qaimə-fakturalar
Onlayn növbə
Paketlər
VÖEN üzrə sorğu
Ərizələr
2024
Filtr
Köhnə sistemə keçid
Yeni ərizə
Hamısına bax
Göndərmək istədiyiniz ərizənin növünü daxil edin
Göndərilənlər
Qaralamalar
Təsdiq gözləyən
Sırala: Təqdim olunma tarixi
Ərizə
Qeydiyyat nömrəsi
Status
Əməliyyatlar
POS-terminalın qeydiyyatı
Təqdim edildi: 10.01.2024
2417010000012100
Sənəd göndərilib
Endir
POS-terminalın qeydiyyatı
Təqdim edildi: 10.01.2024
2417010000011400
Sənəd göndərilib
Endir
Hüquqi şəxsin fəaliyyətinin dayandırılması
Təqdim edildi: 09.01.2024
2419010000175100
Aktivdir
Endir
Üzləşmə aktlarının verilməsi
Təqdim edildi: 08.01.2024
2419010000151900
Sənəd göndərilib
Endir
Hüquqi şəxsin fəaliyyətinin dayandırılması
Təqdim edildi: 08.01.2024
2419010000123200
Sənəd göndərilib
Endir
Hüquqi şəxsin uçot məlumatlarının dəyişdirilməsi
Təqdim edildi: 07.01.2024
2419010000097200
Aktivdir
Endir
Hüquqi şəxsin fəaliyyətinin dayandırılması
Təqdim edildi: 07.01.2024
2419010000096500
Sənəd göndərilib
Endir
Hüquqi şəxsin fəaliyyətinin dayandırılması
Təqdim edildi: 07.01.2024
2419010000087500
Sənəd göndərilib
Endir
ALPHA
"AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ
Elvin Hüseynov,
Layihə Rəhbəri
VÖEN 9900001881
Qeydiyyat tarixi 27.05.2004
Fərdi vergi təqvimi
Yanvar 2024 - Fevral 2024
Be Ça Ç Ca C Ş B